AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**DİLARƏ ABBAS QIZI HACIYEVA**

# QAFQAZ ALBANİYASININ SARMAT-ALAN TAYFALARI İLƏ QARŞILIQLI ƏLAQƏLƏRİ (TARIXI-ARXEOLOJI TƏDQIQAT)

**5505.02 - Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin «Arxeologiya» elmi fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İlyas Atabala oğlu Babayev**
*AMEA-nın müxbir üzvü,*
*tarix üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Tarix Meyrut oğlu Dostiyev**
*tarix üzrə elmlər doktoru*

**Rauf Seyfulla oğlu Məlikov**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedoqoji Universitetinin «Ümumi tarix» kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən (5505.02 – "Arxeologiya") tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən FD 01.171 Dissertasiya Şurasının «_27___» 09_2013-cü il tarixli iclasında saat____keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti -31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» __________ 2013-cü il tarixdə göndərilmişdir.

FD 01. 171
Dissertasiya Şurasının elmi
katibi, tarix üzrə fəlsəfə doktoru **S.H.Aşurov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Əlverişli geosiyasi mövqedə yerləşən və zəngin təbii sərvətlərə malik olan Azərbaycan tarix boyu müxtəlif tayfa və xalqların diqqətini cəlb etmiş və bu zaman müxtəlif xarakterli qarşılıqlı münasibətlər yaranmışdır. Bu münasibətlərin təzahürləri isə tarixi Azərbaycan ərazisinin ayrı-ayrı yerlərində qeydə alınmış arxeoloji abidələrdən aşkar olunan materiallarda bu günə qədər qalmaqdadır. Xalqımızın tarixi taleyi ilə sıx bağlı olan bir çox problemlərin araşdırılmasında həmin materialların əhəmiyyəti dissertasiya işinin aktuallığını şərtləndirən əsas amillərdəndir.

Məlumdur ki, tarixi inkişafın gedişində qonşu, coğrafi yerləşmə ilə bir-birinə yaxın, sosial-iqtisadi inkişaf baxımından eyni səviyyədə olan, həmçinin oxşar tarixi şəraitdə yaşayan xalqların bir-birinə qarşılıqlı təsiri daha güclü olmuşdur. Bu baxımdan Şimali və Cənubi Qafqaz xalqları və dövlətləri, xüsusilə də Albaniya və sarmat-alan tayfaları arasındakı intensiv əlaqələr daha çox diqqəti cəlb edir. Təsadüfi deyil ki, sarmat-alanların Avropa düzlərində və Qafqazda meydana çıxması, onların qonşu dövlətlər və xalqlarla qarşılıqlı münasibətləri ilə bağlı məsələlər bütün dövrlərdə tədqiqatçı araşdırmalarının əsas obyektlərindən biri olmuşdur.

Bu mövzuya diqqət yetirən alimlərin bir qismi alanların tarix səhnəsinə çıxmasını antik dövrə aid edərək, iber, alban və parfiyalılarla eramızın I əsrinin ortalarında baş vermiş hadisələrdə alanların da iştirakının heç bir şübhə doğurmadığını vurğulayırlar. Maraqlı cəhətlərdən biri də onların bu hadisələrdə İ.Flavinin skiflərin, Tatsidin isə sarmatların adını çəkməsini əsas götürərək, bunları alanlarla əlaqələndirməyə cəhd göstərmələridir.

Qeyd edək ki, qədim dövrün iri tayfa birliklərindən olan sarmat-alanlar eramızın əvvəllərində Avrasiya materikinin, xüsusilə də Şimali Qafqaz tarixində mühüm yer tutmuşlar. Onların yaşadığı ərazinin, mədəniyyət və incəsənətinin xüsusiyyətlərinin, hərbi-siyasi, iqtisadi və mədəni əlaqələrinin öyrənilməsi üçün tarixi mənbə və materiallarla yanaşı, arxeoloji qazıntıların nəticələri də xüsusi əhəmiyyət kəsb edir. Həmin nəticələrin, o cümlədən sarmat-alan dünyası ilə bu və ya digər dərəcədə bağlı olan tədqiqatların sistemləşdirilməsi, bu tayfaların Azərbaycanla qarşılıqlı əlaqələrinin maddi və mənəvi mədəniyyətə təsiri kimi məsələlərin araşıdrılması qədim tariximizin, xüsusilə də etnogenez və etnik tarixlə bağlı problemlərin həllində vacibliyi mövzunu bir daha aktuallaşdırır. Təsadüfi deyil ki, Ümummilli liderimiz Heydər Əliyev də xalqın tarixi irsinin öyrənilməsinə həmişə böyük önəm

vermiş və qeyd etmişdir ki, "Gərək biz tariximizi heç vaxt unutmayaq. Onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq"[1].

Yeri gəlmişkən, sovetlər dövründə milli-etnik, mədəni-mənəvi varislik məsələsinə ciddi diqqət yetirilməməsinin nəticəsidir ki, bu gün bədnam qonşularımız və onların havadarları Azərbaycan xalqının əsrlər boyu yaratdığı tarixi-mədəni irsə sahib çıxmağa cəhd göstərirlər. Tarixi həqiqətlərin üzə çıxarılması, vətən tarixi ilə bağlı indiyə qədər açılmamış səhifələrin işıqlandırılması da dissertasiya mövzusunu aktuallaşdıran vacib amillərdəndir.

**Tədqiqatın xronoloji çərçivəsi**. Tədqiqatın xronoloji çərçivəsini e.ə. IV - b.e. VII əsrləri təşkil edir. Lakin problemin xarakterindən asılı olaraq, bəzən xronoloji çərçivədən kənara çıxılır, əvvəlki və ya sonrakı tarixi mərhələlərdəki hadisələrə də toxunulur.

**Problemin öyrənilmə dərəcəsi**. İstər Azərbaycanda, istərsə də digər ölkələrdə Albaniya dövləti və sarmat-alan tayfaları tarixinin bir çox aspektlərinə dair geniş tədqiqatlar aparılmış, bir sıra monoqrafiya və dissertasiyalar yazılmışdır. Lakin bütün bu tədqiqatlar ayrı-ayrı mövzuları əhatə etdiyindən, bir çox məsələlər, o cümlədən Albaniyanın sarmat-alan tayfaları ilə qarşılıqlı əlaqələri kifayət qədər araşdırılmamış və müstəqil tədqiqat obyekti olmamışdır.

**Dissertasiyaının mənbə bazasını** qeyd olunan xronoloji çərçivəni əhatə edən yazılı mənbə, arxeoloji-etnoqrafik materiallar və tədqiqat əsərləri təşkil edir. Həmin mənbə və əsərləri şərti olaraq üç qismə bölmək olar: yunan və latın yazılı mənbələri, tarixi tədqiqatlar və yerli arxeoloji materiallar.

Yazılı mənbələr antik müəlliflərin əsərlərindən, yunan və Roma yürüşləri şahidlərinin qeyd və məlumatlarından, ölkələr, onların təbiəti, inzibati ərazisi, hərbi qüdrəti və eləcə də xalqların mədəniyyəti haqqındakı məlumatlardan ibarətdir.

Elmi-tarixi ədəbiyyatda Albaniya haqqında ən erkən məlumat coğrafiyaşünas Erotosfenə məxsusdur. Strabonun "Coğrafiya" əsərində də Albaniya haqqında nisbətən ətraflı məlumat verilmişdir. Ümumiyyətlə, onun Qafqaz xalqları – albanlar və sarmat-alanlar haqqında verdiyi bu məlumatlar nöqsanlı olsa belə, antik dövr tarixini öyrənmək baxımından çox faydalıdır.

Böyük Plininin, Plutarxın, Artemidor və başqalarının bizə gəlib çatan əsərləri də Qafqaz Albaniyası əhalisinin etnik xüsusiyyətlərini, bu

---

[1]Heydər Əliyev. Biblioqrafik məlumat kitabı. Bakı, Bakı Universitetinin Nəşriyyatı, 2003. s. 149.

ölkənin təbii-coğrafi şəraitini və hidronimlərini öyrənmək baxımından əhəmiyyətlidir. Antik dövr coğrafiyaşünası və tarixcisi Pomponiy Melanın (I əsr) "Yeri təsviretmə" əsərində Albaniyada olan çayların, dağların və Xəzər dənizinin adı cəkilir. Bəzi tədqiqatçılar bu əsəri yazarkən Melanın Heredotun məlumatlarına istinad etdiyini güman edirlər.

Plutarxın (I əsr-II əsrin əvvəli) "Pompey", yeni eranın II əsrində yaşamış yunan coğrafiyaşünası Klavdiy Ptolemeyin (70-147) «Coğrafi göstəricilər» və Roma tarixçisi Korneli Tatsidin (55-117) yazılarında da Albaniyanın adı çəkilmişdir. Korneli Tatsidin «Annallar»ı b.e.-ın 14-69-cu illərini əhatə edir və burada Albaniya tarixi ilə bağlı bir sıra məqamlar əksini tapmışdır.

Albaniyanın adını öz əsərlərində daha çox çəkmiş antik müəlliflərdən biri də Appiandır (II əsr). Onun Roma tarixinə həsr edilmiş 24 kitabdan ibarət əsərinin 12-ci kitabı Romanın Mitridat Evpator, Romadan şərqdə olan ölkələr və Albaniya ilə müharibələrinə həsr edilmişdir.

Dion Kassi Kokianın (II-III əsrlər) "Roma tarixində" də Albaniyadan və e.ə. 68-ci ildən – eramızın 47-ci ilinədək baş vermiş hadisələrdən bəhs olunur. Dion Kassi Kokianın özü II-III əsrlərdə yaşamış və romalıların Albaniyaya yürüşlərini, həmçinin alban-Roma müharibələrini təsvir etmişdir. Albaniya ərazisindəki toponimlərin adlarının da çəkildiyi bu əsəri yazarkən, müəllif çox güman ki, Tit Livinin, Tatsidin və Svetonianın əsərlərindən geniş istifadə etmişdir.

Albaniya tarixinə dair digər bir mühüm mənbə Anonim Ravenskinin «Kosmoqrafiya»sıdır (VII əsr). Burada da Albaniya toponimlərindən bəhs olunmuş və Albaniya dövlətinin ərazisi patrilərə - rayonlara bölünmüşdür.

Antik müəlliflər - Kvint Kursi Ruf (I əsr), Sekst Yuli Frontin, Svetoni Trakvil (I-II əsrlər), Lutsi Anney Flor (II əsr), Mark Yunian Yustin (II-III) və başqalarının yazılarında da Albaniyaya dair müxtəlif səpkili məlumatlar əksini tapmışdır. Stefan Vizantiyskinin, Yuli Solinin, Amian Marsellinin Albaniyaya aid epizodik xarakterli məlumatların rast gəlindiyi əsərlərini də bu sıraya daxil etmək olar.

Albaniya tarixinə dair mənbələr arasında alban tarixçisi M.Kalankatuklunun «Albaniya tarixi» əsəri xüsusi əhəmiyyətə malikdir. Bu əsərdə Albaniyanın tarixi-coğrafi şəraitinə, iqtisadi və mədəni tarixinə dair çox qiymətli məlumatlar əksini tapmış, həmçinin Şimali Qafqaz xalqları haqqında bir çox maraqlı faktlar verilmişdir.

İlk dəfə olaraq məhz M.Kalankatuklu alanların Albaniya ərazilərinə hücum edərək şəhər və kəndləri qarət etməsi və saysız-hesabsız əsir aparması barədə geniş məlumat verir.

Tədqiqat işi qarşısına qoyulmuş əsas vəzifələrdən biri də sarmat-alanların mənşəyinin, yayılma arealı və yaratdığı dövlətlərin müəyyənləşdirilməsidir. Məlumdur ki, b.e.-nın əvvəllərinədək heç bir mənbədə "alan" etnoniminə rast gəlinmir. İlk dəfə olaraq I əsr Roma müəllifləri Lukan, Seneka, Valeri Flakk, Plini Sekund və İosif Flavi öz əsərlərində alan tayfalarının adını çəkmiş, lakin onların sarmatlarla bağlılığını nəzərə alaraq bu problemin tədqiqinə sarmatların tarix səhnəsinə çıxması dövrünə ekskurs etməklə başlamışlar. Bu barədə dissertasiya işinin birinci fəslində daha geniş məlumat verilir.

Albaniyanın alan-sarmat tayfaları ilə qarşılıqlı münasibətləri təhlil edilərkən bir sıra tədqiqat əsərlərinə də müraciət olunmuşdur ki, onların da sırasında K.V.Treverin, M.İ.Artamonovun, S.M.Perevalovun, V.V.Bartoldun, B.F.Minorskinin, K.V.Treverin, Z.İ.Yampolskinin, Z.M.Bünyadovun, N.M.Vəlixanlının, F.C.Məmmədovanın, K.H.Əliyevin, İ.H.Əliyevin, Q.A.Aslanovun, V.B.Vinoqradovun, K.F.Smirnovun, Y.S.Qaqloytinin, L.Q.Neçayevanın, V.N.Əliyevin, İ.A.Babayevin, C.Ə.Xəlilovun, F.L.Osmanovun, T.M.Minayevanın, V.V.Sedovun, V.N.Kaminskinin, T.A.Qabuyevin, İ.A.Arzantsevanın, Z.K.Albəyovanın, V.Y.Malaşevin, R.M.Qasımovanın, D.İ.Kiriçenkonun, Q.C.Cəbiyevin, A.M.Məmmədovun, Q.Ə.Hacıyevin, M.C.Xəlilovun və Ə.Ə.Əliyevin, T.M.Məmmədovun, O.M.Davudovun, M.C.Hacıyevin və M.Q.Hacıyevin, Q.A.Melikişvilinin, Y.S.Qaqloytinin, V.B.Kovalevskayanın, Q.E.Afanasyevin və V.A.Kuznetsovun, L.N.Qumilyovun, B.V.Məhəmmədovun, A.A.Kudryavtsevin, V.N.Kaminskinin, I.V.Kaminskayanın, M.Blokun və başqalarının əsər və məqalələri mühüm yer tutur.

Bunadan başqa, dissertasiya işi yazılarkən Azərbaycan tarixi üzrə qaynaqlardan, çoxcilidlik Azərbaycan tarixindən və digər elmi-tədqiqat əsərlərindən də istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin məqsədi Qafqaz Albaniyasının sarmat-alan tayfaları ilə qarşılıqlı əlaqələrinin və bu əlaqələrin xarakterinin öyrənilməsidir. Problem araşdırılarkən aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- Qafqaz Albaniyası və sarmat-alanların qarşılıqlı əlaqələrinə aid yazılı mənbə və tədqiqat materiallarını toplamaq, müvafiq ümumiləşdirmələr aparmaqla, onların əhəmiyyətini üzə çıxarmaq;

- Alanlar, onların mənşəyi, yayılma arealı və yaratdığı dövlətlərin tarixinə dair mənbə və tədqiqat materiallarını müəyyən etmək və araşdırmaq;

- Sarmat-alan tayfalarının cənub yürüşlərinini yazılı mənbə, arxeoloji tədqiqatların nəticələri və tarixi ədəbiyyat materialları əsasında tədqiq etmək;

- Qafqaz Albaniyasının sarmat-alan tayfaları ilə qarşılıqlı münasibətlərinin ayrı-ayrı aspektlərinə dair materialları təhlil etmək və müvafiq nəticələr çıxarmaq;

- Albaniya ilə sarmat-alanların qarşılıqlı əlaqələrinin maddi mədəniyyətə təsiri məsələlərini araşdırmaq.

Tədqiqat zamanı sarmatlarla alanların bir kökə bağlılığı, mənşə etibarilə müxtəlif xalqlara və tayfalara aid spesifik xüsusiyyətlərin daşıyıcısı olmaları müəyyənləşdirilmişdir. Bu zaman alanların türk, Qafqaz. İran və yunan mənşəli olması və indiki osetinlərin, çeçen-inquşların, qaraçaylıların, balkarların kökündə az və ya çox dərəcədə alanların durduğu qənaəti hasil olmuşdur. Bundan başqa, dissertasiya mövzusuna aid olmasa belə, albanların vahid tayfa deyil, ayrı-ayrı tayfaların ittifaqından ibarət olması barədə məlum fikirlərə də dolayısı ilə münasibət bildirilmişdir

**Tədqiqatın metodoloji əsasını** məsələlərə obyektiv tarixi yanaşma, müqayisəli təhlil və elmlərarası sintez metodu təşkil edir. Belə ki, mövzunun xarakteri, yəni qədim xalqların və dövlətlərin qarşılıqlı münasibətləri, miqrasiya prosesləri və s. özlüyündə mürəkkəb bir problem olduğundan yazılı, arxeoloji, antropoloji və s. materiallardan ibarət geniş mənbə bazası və kompleks yanaşma metodu tələb edir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi aşağıdakı müddəalarla təsbit edilmişdir:

- Problem Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq geniş və kompleks şəkildə araşdırılır;

- Qafqaz Albaniyasının sarmat-alan tayfaları ilə qarşılıqlı əlaqələri, bu əlaqələrin tarixi və onun Azərbaycanın etnososial mühitinə təsiri məsələsi yeni qoyuluşda tədqiq edilir;

- Problemin həlli müasir Azərbaycan Respublikasının milli və geosiyasi maraqları kontekstində təqdim olunur;

- Xarici işğalçıların və müdaxiləçilərin Azərbaycana aramsız basqınları və onlara qarşı mübarizə məsələləri gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi nəzərə alınmaqla şərh edilir;

- Faktiki materialların təhlili əsasında Albaniyanın sarmat-alan tayfaları ilə qarşılıqlı əlaqələri və bu əlaqələrin maddi və mənəvi mədəniyyətlərə təsiri ilk dəfə olaraq konkret elmi dəlillərlə əsaslandırılır.

**Dissertasiyanın əməli əhəmiyyəti**. Dissertasiya işinin müddəalarından Azərbaycanın qədim tarixinin ayrı-ayrı problemlərinin tədqiqi zamanı istifadə oluna bilər. Bundan əlavə, tədqiqat işi ali məktəblərin bakalavr və magistr hazırlığı pillələrinin tələbələri üçün oxunan mühazirələrdə, kurs və diplom işilərinin yazılmasında, həmçinin etnogenez və etnik tarixlə bağlı problemin araşıdırılmasında da faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası**. Dissertasiya işi AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin "Arxeologiya" elmi fond şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin ayrı-ayrı elmi nəşrlərdə çap etdirdiyi məqalələrində və elmi konfrans və simpoziumlarda etdiyi çıxışlarında əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, qəbul edilmiş ixtisarlar, istifadə olunmuş ədəbiyyat, illustrasiyalar, xəritələr, tablolar və onların tam siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «**Giriş**» hissəsində araşdırılan mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, xronoloji çərçivəsi, nəzəri-metodoloji bazası, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın I fəsli **"Albanlar, sarmat-alan tayfaları, onların qarşılıqlı əlaqələri haqqında yazılı mənbələr və tədqiqatlar"** adlanır. İki bölmədən ibarət bu fəslin **"Albanlar və sarmat-alanlar yazılı mənbələrdə"** adlı birinci bölməsində yazılı mənbələr, antik müəlliflərin əsərləri, yunan və roma yürüşlərinin şahidlərinin qeydləri əsasında ölkələr və xalqlar, onların təbiəti, inzibati ərazisi, hərbi qüdrəti və eləcə də mədəniyyəti haqqında ətraflı məlumat verilir. Yuxarıda qeyd olunduğu kimi, həmin məlumatlar nöqsanlı olsa belə, antik dövrün tarixini öyrənmək baxımından faydalıdır. Belə ki, alanların mənşəyi, yayıldığı ərazilər, qonşu xalqlar və dövlətlərlə qarşılıqlı əlaqələri arxeoloji tədqiqatlarla yanaşı, həmin mənbələrdə də əksini tapmışdır. Aparılan müvafiq təhlillərdən sonra belə bir nəticəyə gəlinir ki, mənbələrdə verilən məlumatların çoxu üst-üstə düşmür və bəzi hallarda müəlliflərin ayrı-ayrı dövrlərə, xüsusilə özlərindən əvvəlki tarixi hadisələrə münasibət bildirməsi, etnik məsələlərlə bağlı yanlış fikirlər irəli sürməsi xeyli dolaşıqlıq yaradır. Bu baxımdan həmin

mənbələrə tənqidi yanaşılmış və vacib məsələlərin mahiyyətinə obyektiv münasibət ifadə olunmuşdur.

Qədim yunan coğrafiyaçısı Strabon alanların yaşayış məskənləri və sosial strukturu haqqında məlumat verərək yazır ki, bu ölkədə 4 kateqoriyaya aid insanlar yaşayır: birinci kateqoriyaya çarlar, hakim və sərkərdələr, ikinci kateqoriyaya kahinlər (rahiblər), üçüncü kateqoriyaya döyüşçü və əkinçilər və nəhayət dördüncü kateqoriyaya sadə xalqın nümayəndələri aiddir.

Albanlar, Albaniyanın təbii-coğrafi şəraiti, hidronimləri və əhalinin etnik xüsusiyyətləri haqqında isə Plininin «Təbiət tarixi» əsərində məlumat verilir. Belə ki, burada Kür çayı və onun qollarından, ərazinin təbii-coğrafi şəraitindən, ümumiyyətlə, təbii özünəməxsusluqlardan bəhs edilir. K.Ptolomey isə Albaniyanın 29 şəhər və yaşayış yerinin, 5 çayın adını çəkmiş, tərtib etdiyi xəritədə bu dövlətin şimal-şərq və cənub sərhədlərini göstərmiş, antik dövr tacirlərinin Avropa-Şərq ölkələri ilə əlaqələrinə dair geniş məlumat vermişdir.

Siyasi proseslərin araşdırılması baxımından Plutarxın Pompeyin yürüşləri barədə, həmçinin Albaniya hidronimləri ilə bağlı məlumatları diqqəti daha çox cəlb edir. Alban tarixçisi M.Kalankatuklunun «Albaniya tarixi» əsəri də bu dövrün tarixi hadisələrini xarakterizə edən mənbələr sırasındadır. M.Kalankatuklu bildirir ki, sasani şahı Firuz alan qapıları yaxınlığında haylandur tayfaları ilə danışıqlar apararaq onları müharibəyə cəlb etdi və uzun müddət Albaniyanı gərgin vəziyyətdə saxladı. Nəticədə Albaniya dövləti müstəqilliyini itirsə, böyük itkilərə məruz qalsa da, müharibə beş il – 463-cü ildən Firuzun öldürülməsinə qədər davam etdi.

X əsr ərəb coğrafiyaşünası Məsudi alanların hərbi potensialını ön plana çəkərək, onları «qüdrətli, cəsur» xalq kimi təqdim edir və «yürüşə 30 min atlı ilə getdiyini» yazır. İbn Rusta isə qeyd edir ki, «Kür çayı alanlar ölkəsindən axır, Tiflis və Bərdənin yanından keçir, Təbrizin dənizinə tökülür».

Ümumiyyətlə, bu və digər materiallar əsasında aparılan müvafiq təhlillər öz növbəsində Albaniya dövləti və sarmat-alan tayfalarının yayıldığı ərazi ilə bağlı bir çox maraqlı nəticələrə gəlməyə zəmin yaradır. Lakin bəzi hallarda müəlliflərin müxtəlif dövrlərə aid məlumatları üst-üstə düşmədiyindən və ziddiyyət təşkil etdiyindən problemin həllində də müəyyən çətinliklər meydana gəlir.

I fəslin "**Albanlar, sarmat-alanlar və onların qarşılıqlı əlaqələrinin tarixşünaslığı**" adlanan ikinci bölmədə isə albanların və sarmat-alanların tarixinin ayrı-ayrı aspektlərinə dair möbcud tədqiqat əsərləri təhlil edilir. Problemin aktuallığını nəzərə alaraq məsələyə yeni

prizmadan yanaşılır və burada albanlara, eləcə də sarmat-alanlara dair vaxtilə aparılmış tədqiqatların səviyyəsi, elmi-tarixi əhəmiyyəti, obyektiv və yaxud subyektiv cəhətləri müəyyənləşdirilir.

Burada qeyd olunur ki, Albaniya tarixinin tədqiqinə başlandığı ilk dördən (XIX əsrin sonlarından) etibarən Cənubi Qafqaz tarixinin ayrı-ayrı məsələləri – siyasi, iqtisadi və mədəni tarixi də öyrənilməyə başlanmışdır. Bu zaman ölkə əhalisinin etnik tərkibi haqqında bir çox hipotezlər verilmişdir. Sovetlər dövründə Albaniya tarixi azərbaycanlılardan çox əcnəbi tarixçilər tərəfindən yazıldığından və onların çoxunun obyektiv mühakimələrdən uzaq olması səbəbindən, yeni yanaşma və münasibət tələb edir. Elə son dövlərdə bir sıra xarici ölkə alimlərinin Albaniya tarixinə dair tədqiqatları da subyektiv fikirlərlə zəngindir.

Məsələn, M.Tomeşek Albaniya haqqında yazılarında Albaniyanın ərazisinin bir tərəfdən Xəzər dənizindən İberiyayadək, digər tərəfdən Qafqaz dağlarından Kür çayının mənsəbinədək uzandığını yazır. Bu yazılarda albanlar Qafqazda yaşayan tayfaların konqlomeratı kimi göstərilir və məxsusi dialektdə danışdıqları qeyd olunur. Burada M.Tomaşek həm Albaniyanın sərhədləri məsələsində, həm də alban dili ilə bağlı mülahizələrində ciddi səhvlərə yol vermişdir.

K.V.Trever isə qədim və orta əsrlər Albaniyası tarixinə həsr etdiyi əsərində albanların Kür çayının orta və aşağı axarından Dərbəndədək məskunlaşdığını qeyd etməklə, Samurçay hövzəsinin dağ rayonlarından Cənubi Qafqaz dağlarına qədərki ərazilərdə məskunlaşdığı haqda mövcud fikirləri bir daha təsdiqləyir.

Antik müəlliflərin əsərlərindəki məlumatlara əsaslanan tarixçi Şərqi Avropa düzənliklərində məskunlaşmış tayfalar, bu tayfaların cənuba doğru axını barədə də maraqlı fikirlər irəli sürür. O, bu tayfaların bir hissəsinin Kür-Araz hövzəsində yerləşdiyini və onların saklar, alanlar və massagetlərdən ibarət olduğunu bildirir.

Bundan əlavə K.V.Trever yerli coğrafi adların öyrənilməsinə həsr olunmuş əsərində belə qənaətə gəlmişdir ki, Albaniyanın əhalisi Qafqaz, İran və türk mənşəlidir.

Albaniyada şəhərsalma və memarlıq məsələləri isə arxeoloji baxımdan daha çox Azərbaycan alimləri tərəfindən işıqlandırılmışdır. Bu cəhətdən İ.A.Babayevin Q.M.Əhmədovla birgə yazdığı «Qəbələ» əsəri Albaniyanın ilk paytaxtlarından olmuş Qəbələ şəhərinin arxeoloji və memarlıq baxımından tədqiqinə həsr edilmiş çox mühüm əsərdir. Bu sıraya İ.A.Babayev və C.A.Xəlilov tərəfindən Xınıslı yaşayış yerində aparılan tədqiqatların nəticələrinin də aid etmək olar.

İ.Əliyev və Q.Aslanovun müştərək məqaləsində isə sarmat-alan tayfalarının Azərbaycandakı yayılma ərazilərinə, maddi mədəniyyət nümunələrində qalmaqda olan izlərinə, o cümlədən katakomba qəbir abidələrinə xüsusi diqqət yetirilmişdir. Yeri gəlmişkən xatırladaq ki, gürcü müəllifi R.M.Ramişvili sözügedən katakomba qəbirlərinin xüsusiyyətləri ilə maraqlanmış və bunların əsasında 2 qrup mədəniyyətin olduğunu bildirmişdir: 1) Şərqi Gürcüstana aid olan katakomba qəbirləri mədəniyyəti və 2) Azərbaycana aid olan katakomba qəbirləri mədəniyyəti.

Göründüyü kimi, burada «Şərqi Gürcüstan» məvhumu özlüyündə mübahisə doğruan məsələlərdən biridir və onun kökündə çox güman ki, Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları dayanır. Lakin bu cür iddialar təkcə gürcü alimləri tərəfindən səsləndirilmir. Xüsusilə də son illər digər qonşu dövlətlərdə də Albaniya tarixi ilə bağlı bir çox saxtalaşdırmalara və əsassız iddialara yol verildiynin şahidi oluruq. Məsələn, 1967-ci ildə nəşr edilmiş «Dağıstan tarixi»ndə arxeoloji materiallar fonunda Albaniyanın etnik tərkibinə və tarixi çoğrafiyasına aid çox ciddi səhvlərə və təhriflərə yol verilmişdir. Bundan əlavə, sözügedən kitaba əlavə edilmiş xəritədə Qəbələ şəhəri Alazan və Sulaq çayları arasında təqdim edilsə də, mətndə müasir Qəbələ şəhəri ilə eyniləşdirilmişdir. Kitabda həmçinin Albaniya dövlətinin özəyi olaraq indiki Dağıstan ərazisi göstərilmiş, qədim albanlar isə dağıstanlıların əcdadları kimi qeyd olunmuşdur.

Yeri gəlmişkən, Rusiya Federasiyasında, xüsusilə də Dağıstanda Albaniya tarixinə birtərəfli və eyni zamanda qərəzli yanaşma ənənəsi bu günün özündə də davam etdirilir. Odur ki, tarixi və arxeoloji tədqiqatlar əsasında Albaniya, onun şimal qonşuları - sarmat-alan tayfalarının məskunlaşdıqları ərazi, digər tayfalar (gürcülər, Dağıstan tayfaları, çeçen və inquş tayfaları) və dövlətlərlə münasibətlərinin əhəmiyyəti nəzərə alınaraq, problemin həllində faktiki – arxeoloji materiallarla yanaşı, antik dövr tarixçilərinin məlumatlarına da üstünlük verilmişdir.

Dissertasiyanın **«Sarmat-alan tayfaları və onların cənuba yürüşləri»** başlıqlı II fəslinin **«Sarmat-alanlar, onların mənşəyi və yayılma arealı»** adlı birinci bölməsində alanların kimliyi, onların Qafqazın və Avrasiyanın tarixində tutduğu yer və bununla bağlı digər məsələlər əksini tapmışdır. Qeyd edək ki, sarmat-alanlar, alanlara məxsus mədəniyyət və onların tarix səhnəsində rolu haqqında elmi ictimaiyyət arasında müxtəlif fikirlər mövcuddur. Belə ki, bir qrup tədqiqatçılar alanların irandilli olmaqla, müasir osetinlərin, qaraçay-balkarların, inquş və çeçenlərin, toplum, hər hansı bir qurum, yaxud müxtəlif mənşəli tayfaların ittifaqı, ellinlər və s. kimi təqdim olunmasının tərəfdarları kimi çıxış edirlər.

Məlum olduğu kimi, bizim eranın I əsrinin ortalarından başlayaraq əvvəlcə Qədim Roma şairi Lukan və filosof Seneka, eramızın I əsrinin ikinci yarısında isə Valeri Flakk, Plini və İosif Flavi öz əsərlərində alan tayfalarının adını xatırladırlar. Qeyd olunur ki, alanların köçü Avropa Sarmatiyasının tarixini və etnik mənzərəsini əhəmiyyətli dərəcədə dəyişmişdir. Onların təzyiqi nəticəsində bu tayfa birliyi qərbə doğru hərəkət edərək Tis və Dunay çayları arasındakı ərazidə yerləşmişdir. Roma sərhədləri yaxınlığında Farzoya və sarmat çarlarının adları əks olunmuş pullar isə onların müəyyən müddət ərzində ya sarmatların protektaratlığı altında, ya da onlarla ittifaqda olduğunu göstərir.

Aparılan araşdırmalar alanların Bospor çarlığının həyatında fəal iştirak etməsi faktını da sübut edir. Fanaqoriyada alanlardan ibarət tərcüməçilər qrupunun fəaliyyət göstərməsi buna əyani sübutdur. Mənbələrin yazdığına görə, alanların hərbi nüfuzu o qədər əhəmiyyətli idi ki, Roma imperiyasında onlarla mübarizə üçün xüsusi tədbirlər planı tərtib edilmiş və küllü miqdarda hərbi vəsait ayrılmışdı. Məlumatlara görə, Roma süvariləri hətta alan süvarilərinin bir sıra taktiki gedişlərini də əxz etmişdilər.

Bütün bunlar nəzərə alınaraq, fəslin birinci bölməsində sarmat-alanlar, onların mənşəyi, yayılma arealı və yaratdığı dövlətlərin öyrənilməsi Azərbaycanın (Albaniya) yerləşdiyi Cənubi Qafqazın vaxtilə şimalında mövcud olmuş xalqlar və dövlətlərdən birinin reallığı, tarixi, mədəniyyəti, ənənələri, xalqımızın, vətənimizin tarixi ilə oxşar və fərqli cəhətləri və qarşılıqlı münasibətləri fonunda təqdim olunur.

II fəslin ikinci bölməsi «**Sarmat-alan tayfalarının cənuba yürüşləri və onlara qarşı mübarizə**» adlanır. Bu bölmədə bizim eranın ilk əsrlərində Mərkəzi Qafqazın dağətəyi ərazilərində və Cənubi Qafqazın şimal yolları üzərində məskunlaşan alanların Albaniyanın şimal qonşularından biri olduğu qeyd olunur. Göstərilir ki, Şimal çöllərinin köçəri xalqlarını Cənubi Qafqazın əkinçi sivilizasiyasından ayıran təbii maneə - Qafqaz silsiləsi heç bir zaman etnos və mədəniyyətlərin qarışmasının və bir-birinə nüfuz etməsinin qarşısını ala bilməmişdir. Bu cür qarışmalar gah cənubdan şimala (məsələn, Kür-Araz mədəniyyətinin daşıyıcıları və ya b.e.ə. I yüzilliyin əvvəlində Koban mədəniyyətində tətbiqi incəsənətin çiçəklənməsi), gah da şimaldan cənuba doğru baş vermiş, əməkdaşlıq, müttəfiqlik və bəzən də silahlı toqquşmalarla müşayiət olunan düşmənçiliklə xarakterizə olunmuşdur.

Əsrin əvvəllərində alanlar Romanın əyalətləri üçün daimi təhlükə mənbəyi olan Dərbənd keçidlərindən keçməklə Parfiya və Atropatenanı darmadağın etmişlər. Onların ardı-arası kəsilməyən hücumları Roma və Parfiyanı təcili olaraq 72-74-cü illərdə Qafqazda müdafiə səddi tikməyə

məcbur etmişdir. Yazılı mənbələrdə o da bildirilir ki, bütün bunlara baxmayaraq alanlar 135-ci ildə Dəryal və Dərbənd keçidlərindən istifadə etməklə Qafqaz üzərindən yürüşlər həyata keçirmiş, Atropatenanı xaraba qoyaraq Kappadokiyaya qədər gedib çıxmış, az qala Cənubi Qafqazda fəlakət mənbəyinə çevrilmişdilər. Bu hadisələrin təfərrüatları antik mənbələrdə və gürcü salnamələrində əks olunmuşdur.

B.e.ə. I minilliyin II yarısında və b.e.-nın hüdudlarında irandilli alan tayfaları dəfələrlə Cənubi Qafqaz ərazilərindən cənuba doğru hərəkət etmişlər. Strabonun məlumat verdiyi kimi, bəzən İberiya və Albaniya çarlarının özləri şimal qapılarını açır və bu tayfaları öz ölkələrindən buraxır, yaxud lazım olanda onları öz ölkələrinə cəlb edirdilər. Elə hallar da olurdu ki, şimal tayfaları bu ölkələri qarət edir və təsərrüfata böyük ziyan vururdular.

Alanların hərəkət istiqaməti də uzun müddət elmi mübahisələrin predmeti olmuşdur. Bu mövzuda fikir müxtəlifliyi isə Roma tarixçisi Dion Kassinin məlumatlarının müxtəlif cür şərh olunması ilə izah edilir. V.V.Latışev və N.E.Berlizovun versiyalarını təhlil edən S.M.Perevalov Dion Kassinin əsərinin bərpa olunmuş ümumi toplusuna istinad edərək sonda belə bir variant irəli sürmüşdür: «…Müharibə mənşəcə massaget olan Farzman tərəfindən alanların ölkəsində başlandı. O, Midiyanı möhkəm sarsıtdı və Kappadokiyaya böyük ziyan vurdu. Lakin sonra əməliyyat bir tərəfdən alanların Voloqez tərəfindən ələ alınması, digər tərəfdən isə Kappadokiya hökmdarı Arrian Flavinin qorxması səbəbindən dayandırıldı».

Dion Kassinin məlumatının bu formada şərhi alan ordusunun hərəkət istiqaməti məsələsində heç bir şübhə yeri qoymur. Belə ki, Cənubi Qafqaz ölkəsinin hədəf kimi götürülməsinin səbəbi o idi ki, onların müttəfiqi olan II Farzman məhz bu dövlətin hərbi-siyasi qüdrətinin azalmasında maraqlı idi. Əsas zərbə Midiya-Atropatenaya vurulmuşdu.

Bəzi mülahizələrə görə isə alanlar Kappadokiya ərazisinə işğal məqsədilə deyil, daha çox kəşfiyyat hücumları həyata keçirmək üçün yürüş etmişdilər. Onların Albaniya istiqamətindəki həmin yürüşləri barədə mövcud ehtimallara vacib arqumentlər kimi Femistinin qeydləri mühüm rol oynayır. O, göstərir ki, Kappadokiya canişini Arrian Flavi hadisələrin gedişində alanların onu sıxışdırması səbəbindən Cənubi Qafqazdan Kaspi qapılarına qədər gedib çıxdı və iberlərin albanlarla «sərhədlərini müəyyən etdi».

Mənbələrin yazdığına görə, bu yürüşlər alanları çox varlandırmışdı. Məsələn, S.M.Perevalov qeyd edir ki, «alanlar parfiyalı Voloqezdən onun əyaləti Midiyanı (Atropatena – D.H.) güclü şəkildə xaraba qoyduqları üçün xərac aldılar».

İki çiçəklənən ölkəni heç bir maneə olmadan qarət etdikdən sonra Parfiyanın hökumət qoşunları cinahlarda romalıların güclü kappadokiyalı legionları ilə üz-üzə qaldığı bir şəraitdə yeni hərbi avantüralara uymadılar və buna görə alanların Cənubi Qafqazdan çıxıb getməsi üçün uzun zaman gözləmək lazım olmadı. Ümumiyyətlə, sözügedən hərbi yürüşlər zamanı alanlar həm ölkəni qarət etmiş, həm də çoxlu miqdarda xərac almışdılar. Onlar yalnız bundan sonra Cənubi Qafqazdan çıxıb getmiş və təcavüzə son qoyulmuşdu.

VI əsrdə - İran-Bizans müharibələrinin qızışdığı bir dövrdə alanlar gah farsların, gah da yunanların tərəfində çıxış edirdilər. Həmin döyüş əməliyyatlarının mərkəzində əsasən alan-ovs dəstələri dayanırdı. Yazılı mənbələrdə alan qruplarından hansısa birinin Cənubi Qafqazın konkret bir ölkəsinin ərazisində yerləşməsi barədə məlumat yoxdur. Bu məsələ arxeoloji tədqiqatların nəticələri ilə açılır. Belə ki, Cənubi Qafqaz ərazisindəki qəbristanlıqlar, bu qəbristanlıqların əsas ticarət yollarının üzərində yerləşməsi və onların Qafqazda sasani ağalığının çöküşü ilə eyni vaxtda zəifləməsi təsdiq edilmişdir. İlk dəfə alan qruplarının farslar üçün mühafizə xidməti aparan hərbi muzdlu qarnizonunun olması barədə məsələni R.Q.Dzattiat qeyd etmişdir. Bu məqsədlə aparılan tədqiqatlar alanlar üçün ənənə halını almış fedaratlar qismində muzdla sərhədlərin, yolların, qalaların mühafizə məsələsini üzə çıxarmışdır. Buna aid Qərbi Avropada, Pannoniyada, Krımda və Qafqazda xeyli dəlil-sübutlara rast gəlinmişdir.

Beləliklə, tədqiq olunan materiallar Qafqazın müxtəlif tayfaları gah müttəfiq, gah da münaqişəli vəziyyətdə talançı hücumlar təşkil edən alanlara qarşı gedən mübarizəni də şərh etməyə imkan verir. Bu məlumatlar Albaniya ilə alanlar arasındakı hərbi münaqişələrin, eləcə də Albaniyanin qonşu xalqlar və dövlətlərlə qarşılıqlı münasibətlər tarixinin öyrənilməsi üçün də böyük əhəmiyyətə malikdir.

Tədqiqat işinin III fəsli **«Qarşılıqlı münasibətlər və bu münasibətlərin maddi mədəniyyətlərə təsiri»** adlanır ki, burada da albanların sarmat-alan tayfaları ilə, həmçinin onların digər qonşu dövlətlərlə qarşılıqlı münasibətlərinin maddi mədəniyyətə təsiri məsələlərindən bəhs olunur. Fəslin «**Albaniyanın sarmat-alan tayfaları ilə qarşılıqlı münasibətləri»** adlı birinci bölməsində e.ə. I minilliyin ikinci yarısında baş verən tarixi hadisələrə münasibət bildirilərək qeyd edilir ki, bu dövrdə mürəkkəb siyasi hadisələrlə zəngin olan Qafqazda həyatın bütün sahələrində böyük dəyişikliklər baş vermişdi. Bunlardan Azərbaycan tarixi üçün daha çox diqqəti cəlb edən hadisə isə şübhəsiz ki, Albaniya dövlətinin yaranması idi. Albaniya Cənubi Qafqazın digər dövlətləri, Şimali Qafqaz və Ön Asiya və

xalqları ilə sıx siyasi, iqtisadi və mədəni əlaqələr saxlamışdır. Bu əlaqələrin yaranmasına sarmat-alan köçərilərinin Ön Qafqaz çöllərinə yayılması prosesi də təsir göstərmişdi. Həmin proseslər b.e.ə. IV - b.e. IV əsrlərinə aid antik və orta əsr müəlliflərinin əsərlərində, həmçinin bir sıra elmi tədqiqatlarda müəyyən dərəcədə əks olunmasına baxmayaraq, bu gün də aktuallığını qoruyub saxlamaqdadır.

Sarmat-alan problemi ilə məşğul olan Y.S.Qaqloyti özündən əvvəlki müəlliflərdən fərqli olaraq, alanların tarix səhnəsinə çıxmasını daha erkən dövrə aid edir. O, iberlər, albanlar və parfiyalılarla bağlı eramızın I əsrinin ortalarında baş vermiş hadisələrə xüsusi diqqət yetirərək alanların bu münaqişələrdə iştirakının heç bir şübhə doğurmadığını vurğulayır. Maraqlı cəhətlərdən biri də odur ki, müəllif İ.Flavinin bu hadisələrdə skiflərin, Tatsidin isə sarmatların adını çəkməsini əsas götürərək bu adlar altında hər hansı bir şəkildə  alanların gizlənməsi fikrini irəli sürür.

Yazılı mənbələr və arxeoloji materiallar sarmatların da b.e.ə. IV–III əsrlərdən başlayaraq, Şimali Qafqaz istiqamətində hərəkətini izləməyə imkan verir. Həmin məlumatlardan aydın olur ki, sarmatların bir qolu olan siraklar Şimali Qafqazın şimal-qərbində, Azov dənizinin şərq sahillərində - Kuban və Manıç çayları arasındakı ərazidə, aorslar isə Şimali Qafqazın şimal-şərq hissəsində məskunlaşmışdılar. Aorsların yayılma arealı cənubda Dərbənd keçidinədək uzanırdı. Bu tayfaların da Qafqaz keçidlərindən istifadə edərək Qafqaz Albaniyası və Atropatena istiqamətində yürüşləri barədə qədim mənbələrdə geniş məlumatlar mövcuddur.

Alanların Qafqazın etnik məkanında yaşayan geniş yayılması eramızın II əsrinin əvvəllərinə təsadüf edir. Qaynaqlarda onların Dəryal keçidindən keçərək Albaniya və Atropatena istiqamətində yürüşlər etməsinə dair məlumatlar verilir. Bu məlumatları arxeoloji materiallar, Azərbaycanın müxtəlif regionlarında aşkar edilmiş çiy kərpic sərdabələr, dəfnetmə adətləri və qəbirlərin quruluşundakı əlamətlər təsdiqləməklə, həmin mədəniyyətin daşıyıcılarının müəyyənləşdirilməsində xüsusi əhəmiyyət daşıyır.

Bu mülahizələr eyni dərəcədə sarmatlara da aiddir. Belə ki, mənbə və arxeoloji materiallar sarmatların da (aors və sirak tayfaları) eramızın I-II əsrlərində Albaniya və Atropatena dövlətləri istiqamətində hərəkətlərindən xəbər verir və göstərir ki, aorslar əsasən Dərbənd, siraklar isə Dəryal keçidləri vasitəsilə Albaniya və Atropatena ərazilərinə yürüşlər təşkil etmiş və böyük dağıntılar törətmişlər. Albaniya və Atropatena ərazilərində türk mənşəli siraklarla bağlı xeyli sayda toponimlərin mövcudluğu isə onların

məhz Cənubi Qafqaz istiqamətində sarmatların 35-ci il yürüşündə iştirakçı olmaları ilə əlaqələndirilir.

Albaniya ərazilərində sarmatlarla bağlı arxeoloji materiallar Xəzəryanı ərazilərdə daha geniş yayılmışdır. Dərbənd keçidinədək Xəzəryanı vilayətlərin aors tayfa ittifaqının siyasi nüfuz dairəsinə daxil olması faktı isə Azərbaycan Respublikasının Quba, Xaçmaz rayonlarındakı Rustov və Canaxır qəbiristanlığı materiallarında əksini tapmışdır ki, bu da həmin ərazilərə sarmatların (aorslar) gəlməsi fikrini bir daha təsdiq edir.

Tarixi ədəbiyyatda Şərqi Avropa xəritəsindəki əsaslı dəyişiklikləri son antik dövrdə böyük xalqların köçü ilə əlaqələndirilməsi bu prosesin xeyli əvvəl başlanması və qeyd olunmuş əsrlərdən sonra başa çatması kimi fikirlərə də rast gəlinir. Alan tayfalarının e.ə. II-I əsrlərdə hərəkətə başlaması, Şimali Qafqaza sarmat axınının isə bundan da əvvəl - e.ə. III əsrdə baş verməsi fikrinin irəli sürülməsi məhz bu qəbildəndir.

Bir tərəfdən Avropadan, digər tərəfdən Çin, Hindistan və Orta Asiyadan keçən ticarət yolları Parfiya ərazisində kəsişdiyindən, gətirilən mallar yerli tacirlər tərəfindən ya başqa istiqamətə ötürülür, ya da iri şəhərlərdə qalaraq geniş ticarət yolları şəbəkəsi vasitəsilə Ekbatana daşınırdı ki, buradan da başqa yerlərə aparılırdı. Antik Albaniya və Atropatena üçün nəzərdə tutulan idxal malları da Ekbatana həmin əsas ticarət yolları vasitəsilə gətirilirdi. Deməli, Avropadan başlayaraq Şimali Qafqazdan keçən ticarət yolu Albaniya ərazisinə daxil olaraq Dərbənd keçidindən sonra Xəzər dənizi ilə Böyük Qafqaz dağ silsiləsinin arasından müasir Şamaxı-Qəbələ-Xaldan istiqamətində davam edərək Mingəçevir-Gəncə istiqamətinə keçmişdir. Cənuba gedən ticarət yolu isə Kür çayına yaxın ərazilərdən keçməklə Xaldan və Yevlaxdan Bərdəyə, oradan isə Şərq ölkələrinə gedən yollardan istifadə olunmaqla, indiki Bərdə, Ağdam və Füzuli rayonları ərazisindən, Atropatena istiqamətində uzanırdı.

Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, antik və ilk orta əsrlərdə beynəlxalq ticarətin magistral yollarından birinin Albaniyanın sahilyanı ərazisi ilə cənubdan şimala keçməsinə və onun bu yolların üstündə yerləşən şəhərlərinin ticarətdə tranzit rolunu oynamasına xüsusi diqqət yetirmək lazımdır. Həmin karvan yolunun mövcud olması məsələsinə Cənubi Dağıstanın arxeoloji abidələrini araşdıran müəlliflər də şübhə etmirlər. K.F.Smirnovun qeyd etdiyi kimi, Dağıstanın cənub rayonları Qafqaz Albaniyasının tərkibinə daxil edildiyi dövrdə güclü sarmat tayfa birliklərindən olan aorslar Ön Asiyanı Cənubi Qafqazla birləşdirən ticarət karvan yolunu davam etdirirdi və bu yol şimali Xəzər çöllərinin dərinliklərinə qədər uzanıb gedirdi.

Son orta əsrlərədək fəaliyyət göstərmiş sözügedən karvan yolları əhali arasında «dəvə yolu», «elçi yolu» və digər adlarla günümüzə qədər qorunub saxlanmışdır.

Onu da qeyd edək ki, Albaniyanın qonşu dövlət və xalqlarla əlaqələrinə dair antik mənbələrdə verilən məlumatların azlığına baxmayaraq, onlar tədqiq olunan dövrün müəyyən problemlərinin həlli üçün böyük əhəmiyyət kəsb edir.

Beləliklə, alan etnomədəni irsinin mövcudluğu faktı Qafqazda və onun hüdudlarından kənarda əhəmiyyəti ondan ibarətdir ki, onlar yalnız osetin xalqına - alanların əsas varislərinə deyil, bu və ya digər dərəcədə başqa Qafqaz xalqlarına da məxsusdur. Belə ki, sarmat-alanların tarix və mədəniyyəti, onların qonşu dövlətlər və xalqlarla qarşılıqlı münasibətləri bu regionda yaşamış hər bir xalqın maraqlı və zəngin keçmişə malik olduğunu əyani surətdə göstərir.

Bu fəslin ikinci bölməsi «**Albaniya ilə sarmat-alanların qarşılıqlı əlaqələrinin maddi mədəniyyətlərə təsiri**» məsələlərinə həsr olunmuşdur. Dünyada mövcud olan hər bir xalqın özünün tarixi imkişafının gedişində digərlərinə, xüsusilə qonşu etnoslara təsir etməsi faktı yaxşı məlumdur. Xüsusilə, ərazicə bir-birinə yaxın olan, sosial-iqtisadi inkişaf baxımından eyni tarixi şəraitdə yaşayan xalqların bir-birinə qarşılıqlı təsiri daha aktiv olmuşdur. Bu mənada Şimali və Cənubi Qafqaz xalqları və dövlətləri, xüsusilə də, Albaniya ilə sarmat-alanlar arasındakı əlaqələrin tədqiqi də maraq doğuran məsələlərdəndir.

Eramızın ilk əsrlərində Mərkəzi Qafqazın dağətəyi ərazilərində və Cənubi Qafqazın əsas aşırımlı yolları üstündə məskunlaşan alanlar ətraf xalqlar və dövlətlərlə müxtəlif şəkildə qarşılıqlı münasibətlərdə olmuşdur. Artıq qeyd olunduğu kimi, heç bir siyasi hadisə və proseslər, o cümlədən Avropanı Asiyadan ayıran möhtəşəm təbii maneələr bu etnos və mədəniyyətlərin bir-birinə nüfuz etməsinin qarşısını ala bilməmişdir. Bu cür qarşılıqlı nüfuzetmələrin mövcudluğu şəraitində isə cənubdan şimala və əksinə, şimaldan cənuba doğru əhali axınının – təbii və məcburi miqrasiyaların baş verməsi də şübhə doğurmur.

Ümumiyyətlə, araşdırmalardan belə bir qənaət hasil olur ki, alanlar 1300 ildən artıq Şimali Qafqazın mərkəzi hissəsinin sakinləri olmuş və özlərinə məxsus mədəniyyət yaradıb inkişaf etdirmişlər. Onların Şimali Qafqazın müasir tarixinə və mədəniyyətinə bəxş etdikləri irs də çox əhəmiyyətlidir. Bu irsin və əsrlər boyu yaradılmış zəngin ənənələrin qonşu xalqlar və dövlərlərə, xüsusilə də Albaniyaya təsiri barədə çıxarılan ümumi nəticələr maddi mədəniyyət abidələrində öz geniş əksini tapmışdır.

Son dövrlərdə Şimali Qafqazda daşıyıcılarının Hind-Avropa xalqları olan qədim mədəniyyətin bərpası və inkişaf etdirilməsi gündəmə gətirilmişdir. Bu mədəniyyətin məişətə üç min il bundan əvvəl - b.e.ə. II əsrin sonu - I əsrin ortalarında daxil olması, Mərkəzi Qafqaz regionunda, ilk növbədə Şimali və Cənubi Osetiyada mövcudluğu barədə fikirlər söylənməkdədir. Həmin arxeoloji mədəniyyət Koban mədəniyyəti adlandırılır. Bu cür adlandırma 1969-cu ildə Şimali Osetiyanın Koban kəndində sözügedən dövrə aid tunc əşyaların tapılması ilə əlaqədardır. Həmin əşyalar sırasında balta, muncuqlar, düymələr, asmalar, qolbaqlar, kəmər qaşı, sırqalar və s. olması b.e.ə. I əsrin əvvəllərində bu tarixi ərazidə tətbiqi incəsənətin yüksək inkişafını aydın şəkildə göstərir.

İ.Miziyevin fikrincə, «Köçəri skiflərin sələfləri kimi alanlar öz məişət və mədəniyyətində əcdadlarına – sarmatlara məxsus bütün əsas elementləri həyat və dünyagörüşündə qoruyub saxlamışlar». Müəllif A.Marsellinin sarmatlarla bağlı fikirlərinə istinadən vurğulayır ki, «sarmatların nə bir daxması, nə də əkib-becərmək fəaliyyətləri yoxdur. Onlar ət və südlə qidalanır, içərisi ağac qabıqları ilə döşənmiş, üstü örtülü arabalarda yaşayır və ucsuz-bucaqsız çöllərdə tez-tez yerlərini dəyişirlər». İ.Miziyevə görə, alanlar oturaq yaşayış məskənlərində ilk olaraq yeraltı qazmalar və xəndəklər düzəltmiş, sonra daş tikililərə keçərək, daş sokollar üzərində evlər tikməyə başlamış, daş qəbir tikililəri – sərdabələr inşa etmişlər.

Maraqlı məsələlərdən biri də maddi-mədəniyyət komponentlərinin abidələrdə izlənməsinin etnomədəni proseslərin və qarşılıqlı əlaqələrin öyrənilməsinə xidmət etməsidir. Mənbə və tədqiqatların təhlilindən aydın olur ki, sarmatlaşma müxtəlif mədəniyyətlərin qarışılıqlı qarışması nəticəsində baş vermişdir. Bu proseslər demək olar ki, Şimali və Cənubi Qafqazın bir çox ərazilərini əhatə etmiş, bəzi yerlərdə hətta özünün simasını indiyə qədər qoruyub saxlamışdır.

Sonradan isı bu mədəniyyət sarmatlarla yerli tayfaların etnik qarışması nəticəsində müəyyən dəyişikliklərə məruz qalmışdır. Anoloji proseslər Albaniyanın özündə də baş vermişdir. Dəfn adətlərinin ayrı-ayrı elementləri və dəfn inventarları, yəni skletin yanında bir parça təbaşirin, itin, qoyunun bir parçasının, silah və ya güzgünün qoyulması adəti sarmatlara məxsus əlamətlərin çoxluğu ilə bağlıdır. Şimali və Cənubi Qafqaz xalqları, az-çox dərəcədə Albaniya sakinləri də bu kriteriyalarla sarmatlaşma prosesinə məruz qalmışdır.

Beləliklə də Albaniya ilə sarmat-alan tayfaları arasındakı əlaqələrin tarixi-arxeoloji tədqiqi Azərbaycan arxeologiya və tarix elmlərinin mühüm problemlərindən birinin öyrənilməsinə imkan verir. Aparılan araşdırmalar

nəticəsində belə bir qənaətə gəlmək olur ki, vaxtilə Dağıstana, o cümlədən Cənubi Qafqaza yayılmış alanlar zaman-zaman buradakı etnomədəni proseslərə ciddi təsir göstərmişdir. Xüsusilə də Qafqaz Albaniyası ilə sarmat-alanların siyasi, iqtisadi və mədəni sahədə qarşılıqlı münasibətləri antik və ilk orta əsrlərdə özünəməxsusluğu ilə seçilən Qafqazın, xüsusilə Cənubi Qafqaz əhalisinin zəngin maddi-mədəniyyətinin formalaşmasında və inkişafında mühüm rol oynamışdır.

Dissertasiyanın «**Nəticə**» hissəsində tədqiqatın yekunu olaraq ortaya çıxan əsas nəticələr ümumiləşdirilir. Ялдя олунан ян мцщцм нятиъяляр ися aşağıdakılardan ибарятдир:

1. Albaniya və sarmat-alanlar tarixi-inkişaf prosesində siyasi, iqtisadi və mədəni sahələrdə çox ciddi qarşılıqlı təsirə məruz qalmışlar. Antik və orta əsrlər dövründə özünəməxsusluğu ilə seçilən Qafqaz, xüsusilə də Cənubi Qafqaz əhalisinin maddi mədəniyyətində sarmat-alan ənənələrinin nəzərəçarpacaq yeri və rolu müxtəlif maddi-mədəniyyət nümunələri, o cümlədən arxeoloji materiallarla da təsdiq olunmuşdur;

2. Tədqiqat işi antik və erkən orta əsrlərdə Qafqaz əhalisinin tərkibində Qafqaz mənşəli, türk mənşəli, İran mənşəli və digər etnik komponentlərin mövcud olması, öz tarixi izlərini qoruyub saxlaması barədə məlumatlar, mötəbər faktlar, tutarlı arqumentlər və əsaslandırılmış fikirlər bir sıra mühüm nəticələr çıxarmağa imkan verir;

3. Qafqaz xalqlarının genetik bağlar və mədəni əlaqələr səviyyəsində tədqiqi göstərir ki, alan irsinin öyrənilməsi bu irsin maddi mədəniyyətdə əksini və etnoqrafik baxımdan tədqiqini də zəruri edir. Həmin sistemdə alan mədəniyyəti elementlərinin üstün nəzərə çarpması Qafqaz etnik mühitinin çoxəsrlik və güclü təsiri ilə izah edilir. Məlum olur ki, bu təsirin nəticəsində mədəni spesifikanın tarazlaşması baş vermiş, ümumi cəhətlər formalaşmış və beləliklə də alan mədəniyyətinin Qafqaz siması formalaşmışdır;

4. Eramızın əvvəllərində Şimali Qafqazda möhkəmlənən alanlar vaxtaşırı Azərbaycan ərazilərinə hücumlar təşkil etmiş, dağıntılar törətmiş, maddi və mənəvi irsə, iqtisadiyyata və mədəniyyətə böyük ziyan vurmuşdur. Onlar qonşu gürcülər, slavyanlar və Qafqazın digər tayfa və xalqları ilə gah müttəfiq kimi, gah da münaqişəli bir şəraitdə yaşamışlar;

5. Albaniya dövləti ilə sarmat-alanların qarşılıqlı əlaqələrinin tarixi-arxeoloji tədqiqi nəticəsində məlum olmuşdur ki, alanlar Qafqazda, o cümlədən Cənubi Qafqazda nəzərəçarpacaq dərəcədə maddi və mənəvi izlər qoymuşlar ki, bu da yerli xalqlarla onların arasında qarşılıqlı etnomədəni təsirin mövcud olması faktını bir daha təsdiq edir;

6. Aparılan arxeoloji və tarixi tədqiqatlar göstərir ki, Albaniya dövləti sarmat-alanlarla sıx qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələrdə olmuş və bu əlaqələr arxeoloji nümunələrdə, maddi və mənəvi irsin müxtəlif sahələrində özünü qoruyub saxlamışdır.

Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır**:**


**1.** Alanlar, onların yayılma arealı və yaratdığı dövlətlər //Tarix və onun problemləri, № 4. 2008. s. 5-10.

**2.** Alanlar arxeoloji tədqiqatlarda //Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 1, 2009. s. 71-75.

**3.** Yazılı mənbələr alanlar haqqında //Tarix və onun problemləri, № 1-2, 2009. s. 426-431.

**4.** Qafqaz Albaniyası ilə sarmat-alanların qarşılıqlı əlaqələrinə dair //Tarix və onun problemləri, № 1, 2010. s. 41-45.

**5.** Историко-археологическое исследования аланов и ее научное значение //Казахский Национальный Университет имени Аль-Фараби, № 4(59), 2010. с. 107-110.

**6.** Alanı: общий взгляд на историко-археологические исследования //Материалы III международной научной конференции «Эпический текст: проблемы и перспективы изучения». Пятигорск, 17-19 ноября 2010 г. с.128-129.

**Гаджиева Д.А.**

## Взаимоотношения Кавказской Албании с сармато-аланскими племенами

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем азербайджанской археологии и истории – взаимным отношениям Кавказской Албании с сармато-аланскими племенами. Проблема впервые исследуется комплексно, с использованием разных источников и литературы.

Во «Введении» диссертационной работы обосновывается актуальность темы, определяются цели и задачи, даются сведения об источниковедческой базе, методологической основе, степень изученности, научной новизне, апробации и структуре исследования.

Первая глава диссертации называется «Албаны, сармато-аланские племена, письменные источники и исследования об их взаимных связях». В этой главе, состоящей из двух разделов, на основе письменных источников, произведений античных авторов и заметок свидетелей греко-римских походов даются обширные сведения о странах и народах, об их административной структуре, военной мощи, а также культуре.

Во второй главе под названием «Сармато-аланские племена и их южные походы» даются сведения о происхождении сармато-аланов и об ареале их распространения и отмечается, что Кавказская гряда, являющаяся естественной преградой и отделяющая кочевые народы Севера от земледельческой цивилизации Южного Кавказа, Европу от Азии, не смогла препятствовать взаимоотношения этносов и культур.

Третья глава диссертации называется «Взаимные отношения и влияние этих отношений на материальную культуру». Здесь также говорится о вопросах влияния на материальную культуру взаимных отношений между албанами и сармато-аланами, а также между государствами, о политических, экономических и культурных связях Албанского государства с многими странами и народами Южного и Северного Кавказа, в том числе Передней Азии.

В «Заключении» диссертационной работы подводятся итоги основным предположениям, вытекающим из содержания исследования и обобщаются результаты.

**Hajiyeva D.A.**

## The mutual relationships among sarmat-alan tribes with Caucasian Albania

## SUMMARY

The thesis work has been devoted to- mutual relationships among sarmat-alan tribes with Caucasian Albania which one of very actual problem of Azerbaijan archaeologies and histories. The problem is researching with using scientific- investigation work in the complex form.

There are given information about investigation's source base, methodological basic, study degree scientific innovation, aprobasiya and structure.

The first chapter of the thesis is called "The investigations and written sources about Albanians, sarmat-alan tribes, their mutual relationships". There is given broad information in the basis of writing source's works of antique authors the witness Greece and The Pope's marches about countries and nations, their nature, administrative area, military power and culture.

There is shown and given information that, the second chapter of thesis named" Sarmat-alan tribes and their marches to South given information about source of sarmat-alan tribes and spread areal and shown that North fields nomad nations from South Caucasus plougher civilization natural obstacle from Europe to Asia not prevented penetrate each other Caucasus range ethnos and cultures.

The third chapter of thesis named "Mutual relations and influence to material culture of this relations" that there is talked about political, economical -cultural relations between Front Asia and North Caucasus, between Albanians and sarmat- alans.

There are generalizations and up is summed to major thesis which leading investigations context in the "result" part of thesis.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**ДИЛАРА АББАС кызы ГАДЖИЕВА**

# ВЗАИМООТНОЩЕНИЯ КАВКАЗСКОЙ АЛБАНИИ С САРМАТО-АЛАНСКИМИ ПЛЕМЕНАМИ

**5505.02 – Археология**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2013**